# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI SƏDRİNİN SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/32** **19 sentyabr 2016-cı il**

**"Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının Tədbirlər Planının (2016-2018-ci illər) təsdiq edilməsi barədə**

"Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

1. "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının Tədbirlər Planı (2016-2018-ci illər) təsdiq edilsin (əlavə olunur).
2. Təsdiq olunmuş Tədbirlər planında nəzərdə tutulmuş işlərin məsul icraçılar tərəfindən vaxtında və yüksək səviyyədə yerinə yetirilməsi təmin edilsin.
3. "Tədbirlər planı" elektron qaydada Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilsin.
4. Auditorlar Palatasının "Tədbirlər Planı"nın icrası üzrə məsul şəxs Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin rəisi Maarif Abbasov təyin edilsin.
5. "Tədbirlər planı"nda nəzərdə tutulan tədbirlərin icrası barədə illik hesabat hər il dekabrın 30-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilsin.
6. Bu sərəncamın və "Tədbirlər Planı"nın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**